FƏSİL 3.
Layiqli həyat səviyyəsi

3.1 İqtisadi artım və insan inkişafı anlayışı

3.1.1 İqtisadi artım və onun ölçülməsi

İqtisadi artım istehsal prosesinə əlavə istehsal amillərinin (əmək, kapital və s.) cəlb olunması, yaxud istehsal texnologiyasının təkmilləşməsi nəticəsində **ümumi daxili məhsulun (ÜDM)** həcminin, o cümlədən adambaşına düşən ÜDM-in həcminin yüksəlməsidir. Anlayışdan da göründüyü kimi iqtisadi artım əsasən kəmiyyət dəyişməsini, yəni əhalinin həyat səviyyəsinin yüksəlməsinə imkan verən daha çox əmtəə və xidmətlərin istehsalını ifadə edir. İqtisadi artımdan fərqli olaraq iqtisadi inkişaf dedikdə iqtisadiyyatdakı keyfiyyət dəyişikliyi başa düşülür. İqtisadi inkişaf əlavə iqtisadi artım üçün əsas yaratmaqla birlikdə, sosial-iqtisadi və mədəni strukturda, həmçinin əhalinin həyat səviyyəsində keyfiyyət dəyişikliyinə yol açır. Dolayısı ilə, geniş mənada iqtisadi inkişaf anlayışı həm kəmiyyət, həm də keyfiyyət dəyişməsini ehtiva edir.

ÜDM milli hesablar sisteminin və iqtisadiyyatın ən mühüm göstəricilərindən biri kimi istehsal fəaliyyətinin son nəticəsini ifadə edir və son istehlak üçün istehsal olunmuş əmtəə və xidmətlərin dəyəri ilə ölçülür. O, özündə iqtisadiyyatın bütün sahələri üzrə yaradılan ümumi əlavə dəyərlə xalis vergilərin cəmini əks etdirir. Bu yanaşmaya ÜDM-in istehsal və ya sahə üsulu ilə ölçülməsi deyilir. ÜDM gəlirlər üsulu ilə müəyyənləşdirilərkən isə istehsal olunmuş əmtəə və xidmətlərdən formalaşan ilkin gəlirlərin, yəni muzdlu işçilərin əmək haqqının, istehsala və idxala görə xalis vergilərin, ümumi mənfəətin və ümumi qarışıq gəlirlərin cəminə baxılır. Məlum olduğu kimi, ilkin gəlirlər institusional rezident-vahidlərin istehsalda iştirakı nəticəsində yaranan gəlirlərdən və mülkiyyətdən alınan gəlirlərdən ibarətdir. Nəhayət, ÜDM-in ölçülməsinin xərclər üsulu əmtəə və xidmətlərin son istehlakını, əsas kapitalın ümumi yığımını, maddi dövriyyə vəsaitləri ehtiyatlarının dəyişməsini, qiymətlilərin (sərvətlərin) əldə edilməsini və əmtəə və xidmətlərin ixrac və idxal saldosunu özündə birləşdirir.

Son istehlak üçün istehsal olunmuş məhsul və xidmətlərin cari qiymətlərlə dəyəri nominal ÜDM-i ifadə edir. Əgər t ilində istehsal edilən i məhsulunun (və ya xidmətinin) miqdarını Q_{it}, qiymətini isə F_{it} ilə ifadə etsək, nominal ÜDM ($\overline{Y}_t$) riyazi olaraq aşağıdakı formada göstərilə bilər:

$$\bar{Y}_t = \sum_{i=1}^{n} F_{it} \times Q_{it}$$

Aydındır ki, fiziki istehsal həcminin dəyişmədiyi halda belə ümumi qiymətlər səviyyəsinin yüksəlməsi nominal ÜDM-in artmasını şərtləndirəcəkdir. Bu ba-

xımdan iqtisadi artım ölçülərkən nominal ÜDM əvəzinə daha məqbul yanaşma kimi sabit qiymətlərlə hesablanmış real ÜDM göstəricilərinə istinad olunur. Bunun üçün isə ÜDM-in fiziki həcm indekslərindən istifadə edilir.

Əvvəlki dövrlə müqayisədə hesabat dövründə ÜDM-in fiziki həcm indekslərini hesablamaq üçün hesabat dövründəki ÜDM-in əvvəlki dövrün qiymətləri ilə kəmiyyətini ÜDM-in əvvəlki dövrdəki miqdarına bölmək lazımdır. Müvafiq qaydada uzunmüddətli dövr üçün zəncirvari indekslər metodundan istifadə edilir. Nəticədə hər il üçün ölkə daxilində istehsal olunmuş son əmtəə və xidmətlərin qiymət dəyişməsini xarakterizə edən ÜDM-in deflyatoru (D_t) tapılır və aşağıdakı düstur vasitəsilə nominal ÜDM real ÜDM-ə (Y_t) çevrilir:

$$Y_t = \bar{Y}_t / D_t$$

Yuxarıda verilən düsturda nominal ÜDM-i tənliyin sol tərəfinə keçirək:

$$\bar{Y}_t = Y_t \times D_t$$

İndi isə $Y \times D$ ifadəsinin törəməsini alaq:

$$d(Y \times D) = DdY + YdD$$

Yeni tənliyin hər iki tərəfini $Y \times D$ ifadəsinə bölək:

$$d(Y \times D)/(Y \times D) = dY/Y + dD/D$$

Son tənliyi sadəlik baxımından aşağıdakı kimi də ifadə etmək olar:

$$d\bar{Y}/\bar{Y} = dY/Y + dD/D$$

Nəticə olaraq deyə bilirik ki, real ÜDM-in həcmindəki faizlə dəyişmə ilə deflyatorun faizlə dəyişməsinin cəmi təqribən nominal ÜDM-in faizlə dəyişməsinə bərabərdir. Yəni, deflyator 3%, real ÜDM 2% artarsa, bu nominal ÜDM-in təqribən 5% artması deməkdir.

İqtisadi artım (g_t) isə ÜDM-in illik artım templəri ilə (faizlə) ölçülür və bu zaman cari və bazis ilinin ÜDM göstəriciləri arasındakı fərq bazis ilinin ÜDM göstəricisinə bölünür:

$$g_t = \frac{Y_t - Y_{t-1}}{Y_{t-1}} \times 100$$

Başlanğıc ilindəki ÜDM-i Y_0, n il sonrakı ÜDM-i isə Y_n ilə ifadə etsək, iqtisadi artımla bağlı məchul dəyişəni tapmaq üçün praktiki əhəmiyyətə malik müntəzəm istifadə edilən törəmə düsturlar aşağıdakılardır:

$$Y_n = Y_0 \times (1 + g)^n$$

$$Y_0 = Y_n/(1 + g)^n$$

$$g = \sqrt[n]{Y_n/Y_0} - 1$$

$$n = \log_{(1+g)}(Y_n/Y_0)$$

Məsələn, bir ölkədə ÜDM-in həcmi başlanğıc ilində 30 milyard ABŞ dolları təşkil edirsə, 8 il sonra ÜDM-in həcminin mövcud səviyyəsinin iki qatına (60 milyard ABŞ dollarına) çatması üçün illik iqtisadi artım tempi nə qədər olmalıdır?

$$g = \sqrt[n]{Y_n/Y_0} - 1 = \sqrt[8]{60/30} - 1 = 0{,}09$$

Göründüyü kimi hədəfə çatmaq üçün faizlə ifadə etsək illik təqribən 9%-lik iqtisadi artım tempi tələb olunur.

İqtisadi ədəbiyyatda bir sıra hallarda ÜDM ilə yanaşı ümumi milli gəlir (ÜMG) anlayışından da istifadə olunur. ÜMG hesablanarkən bir ölkənin digər ölkələr ilə iqtisadi əlaqələri nəticəsində yaranan ilkin gəlirlərin saldosu nəzərə alındığından, bu göstərici, başqa ölkələrə verilmiş və ya başqa ölkələrdən alınmış ilkin gəlirlərin fərqinin miqdarı qədər ÜDM-dən fərqlənir.

Bir qayda olaraq hər nəfərə düşən real ÜDM-in həcmi ($\acute{g}_t$) də ölkə əhalisinin sayına (P_t) bölünməklə tapılır:

$$\acute{g}_t = Y_t/P_t$$

Hər nəfərə düşən real ÜDM-in artım tempi isə (faizlə) cari və bazis ilinin göstəriciləri arasındakı fərq bazis ilinin göstəricisinə bölünməklə hesablanır:

$$\acute{g}_t = \frac{\acute{g}_t - \acute{g}_{t-1}}{\acute{g}_{t-1}} \times 100$$

Burada da Y/P ifadəsinin törəməsini alaq:

$$d(Y/P) = (PdY - YdP)/P^2$$

Son tənliyin hər iki tərəfini Y/P ifadəsinə bölək:

$$d(Y/P)/(Y/P) = dY/Y - dP/P$$

Yenə axırıncı tənliyi sadəlik baxımından aşağıdakı kimi də ifadə etmək olar:

$$d\acute{g}/\acute{g} = dY/Y - dP/P$$

Alınan nəticəyə görə hər nəfərə düşən real ÜDM-in artım tempi (faizlə) təqribən real ÜDM-in həcmindəki faizlə dəyişmə ilə əhalinin sayındakı faizlə dəyişmə arasındakı fərqə bərabərdir. Yəni, real ÜDM-in həcmi 5%, əhalinin sayı 2% artarsa, hər nəfərə düşən real ÜDM-in həcmi təqribən 3% artar.

3.1.2 İqtisadi artım nəzəriyyələri

İqtisadi ədəbiyyatda iqtisadi artım nəzəriyyələri ənənəvi iqtisadi artım modelləri və müasir iqtisadi artım modelləri olmaqla iki əsas qrupda ümumiləşdirilir (Şəkil 1).

Klassik iqtisadi artım modellərindən biri olan və Adam Smit tərəfindən irəli sürülən "mütləq üstünlüklər nəzəriyyəsi"nə görə, bir ölkə digərləri ilə müqayisədə hansı malları aşağı xərclərlə istehsal edirsə, həmin malların istehsalında ixtisaslaşmalı və bu malları ixrac edərək ölkə daxilində istehsal olunmayan və ya istehsalı digər ölkələrlə müqayisədə çox xərc tələb edən malları idxal etməlidir. Bu yanaşma ixtisaslaşma (əmək bölgüsü) və kapital yığımını iqtisadi artımın əsas amilləri kimi qəbul edir.

Şəkil 1. İqtisadi artım modellərinin təsnifatı



Mənbə: Taban, S. (2008). İktisadi Büyüme: Kavram ve Modeller, Ankara, Nobel Yayın Dağıtım.

Klassik iqtisadi artım məktəbinin digər təmsilçisi Tomas Maltus, əhalinin sayının yüksək sürətlə artmasını iqtisadi artımın davamlılığını təhdid edən ünsür olaraq görmüşdür. Ona görə, əhalinin sayı həndəsi silsilə ilə artdığı halda, ərzaq mallarının istehsalı ədədi silsilə ilə artır. Bu baxımdan, əhalinin sayının nəzarətsiz artması ictimai rifah üçün təhlükə mənbəyinə çevriləcəkdir.

David Rikardo tərəfindən irəli sürülən "müqayisəli üstünlüklər nəzəriyyəsi"nə əsasən isə, bir ölkədə əksər malların istehsalı ucuz olduğu halda belə, həmin ölkə müqayisəli olaraq hansı malları daha az xərclərlə istehsal edirsə, həmin malların istehsalında ixtisaslaşmalı və bunları ixrac edərək istehsalı digər ölkələrlə müqayisədə daha çox xərc tələb edən malları idxal etməlidir. Beləliklə, ölkələr məhdud resurslarını ən effektiv şəkildə dəyərləndirə və ictimai rifahı maksimum səviyyədə yaxşılaşdıra bilərlər.

"Əmək dəyər nəzəriyyəsi" ilə məşhurlaşan Marksist yanaşmaya (baxışa) görə, iqtisadi artımın mənbəyi kapital yığımıdır və o, izafi dəyərin kapitala çev-

rilmiş formasıdır. İzafi dəyəri yaradan əmək olduğu üçün işçiləri daha çox çalışdırmaq, onlara ödənilən əməkhaqqını azaltmaq və ya əməyin məhsuldarlığını artırmaqla məcmu izafi dəyəri yüksəltmək mümkündür.

Cozef Şumpeter iqtisadi artım amilləri sırasına yenilik (innovasiya) məfhumunu daxil etmişdir. İstehsal səviyyəsini artıran hər növ dəyişikliyi yenilik olaraq qəbul edən Şumpeter, onu yeni məhsul istehsalı, yeni istehsal texnologiyası, yeni bazarlara daxilolma, yeni təchizat mənbələrinin inkişaf etdirilməsi və yeni təşkilatlanma formasında beş qrupa ayırmışdır.

Ənənəvi iqtisadi artım modellərindən biri də Con Meynard Keyns tərəfindən inkişaf etdirilmişdir. Bu yanaşmaya əsasən, durğunluq (staqnasiya) vəziyyətində olan iqtisadiyyatı bu haldan xilas etmək üçün məcmu tələbin genişləndirilməsi zəruridir. Belə ki, artan tələb özündən daha yüksək nisbətdə gəlir artımına səbəb olacaqdır.

Müasir iqtisadi artım modellərindən Harrod-Domar yanaşmasının əsasını iqtisadi yığımlar təşkil edir. Nəzəriyyəyə görə, iqtisadi inkişaf üçün zəruri olan investisiyaların mənbəyi rolunda daxili və xarici yığımlar iştirak edir. İqtisadi artım sürətini isə yığım faizini kapital/istehsal nisbətinə bölməklə əldə etmək olar. Dolayısilə, iqtisadi artım sürətini artırmaq üçün ya iqtisadi yığım faizi, ya da kapitalın məhsuldarlığı (istehsal/kapital nisbəti) yüksəldilməlidir.

Şəkil 2. Endogen iqtisadi artım modeli



Mənbə: Kibritçioğlu, A. (1998). Determinants of Economic Growth and the Role of Human Capital in New Growth Models, AÜSBF Dergisi, 53 (1-4): 207-230.

İqtisadi fəal əhalinin sayının artmasını və texnoloji dəyişiklikləri ekzogen dəyişənlər, yığım, investisiya və iqtisadi artımı endogen dəyişənlər olaraq qəbul edən, Solou və Svan tərəfindən inkişaf etdirilən neo-klassik iqtisadi artım modelində, insan kapitalındakı məhsuldarlıq artımı nəzərə alınmamışdır.

Yeni iqtisadi artım nəzəriyyələrində təhsil, öyrənmə, tədqiqat və inkişaf etdirmə fəaliyyətlərinin təsiri nəzərə alınaraq texnoloji tərəqqi endogen amil kimi qəbul edilir və insan kapitalı modelin mərkəzində yer alır (Şəkil 2). Məsələn, Robert Lukas qeyd edir ki, yüksək təhsilli işçi qüvvəsinin mövcudluğu kapitalın ümumi məhsuldarlığının da artması ilə müşayiət olunur, çünki yuxarı təhsillilər innovasiyaya meyillidirlər və bu hamının məhsuldarlığına təsir göstərir. Həmçinin, təhsilin yaxşı olması gəlirlərin ədalətli bölgüsünə də müsbət təsir göstərir.

3.1.3 İqtisadi artım amilləri

İqtisadi artımın səviyyəsi və davamlılığı baxımından resursların səmərəli bölgüsü mühüm əhəmiyyət kəsb edir. Elmi ədəbiyyatda iqtisadi artımın amilləri sırasında əsasən aşağıdakılar göstərilir:

- təbii resursların kəmiyyət və keyfiyyəti;
- əmək resursların kəmiyyət və keyfiyyəti;
- əsas kapitalın həcmi;
- iqtisadi təşəbbüskarlıq qabiliyyəti;
- texnoloji tərəqqi.

Təbii resurslara torpaq, xammal, su ehtiyatları və s. misal göstərilə bilər. Resurslar tükənən (neft, təbii qaz və s.) və bərpa olunan resurslara (günəş enerjisi, külək enerjisi və s.) ayrılır.

Əmək resurslarından bəhs edərkən isə əhali və onun strukturu ilə demoqrafik göstəricilər, əmək ehtiyatlarının kəmiyyət və keyfiyyət parametrləri nəzərdən keçirilir. Belə ki, inkişaf etməkdə olan ölkələrdə məşğulluğun strukturunun təkmilləşdirilməsi, o cümlədən kənd təsərrüfatının, sənayenin və xidmətlər sektorunun məşğulluqda xüsusi çəkisinin ÜDM-in hədəf strukturuna uyğunlaşdırılması kimi məsələlər ön plana çıxır. İnkişaf səviyyəsi yüksəldikcə isə əhalinin illik artım tempi, asılılıq əmsalı (əmək qabiliyyətli yaşda olmayanların əmək qabiliyyətli yaşda olanlara nisbəti), əhalinin təkrar istehsalının xalis əmsalı kimi parametrlərin nisbətən yaxşılaşdırılması daha aktual hala gəlir.

Digər mühüm resurs rolunda əsas kapitalın həcmi çıxış edir və bu zaman kapital yığımının həcmi, əsas kapitalın yaradılan əlavə dəyərə nisbəti, əsas fond-

ların aşınma nisbəti kimi zəruri göstəricilərə baxmaq lazımdır.

İqtisadi təşəbbüskarlıq qabiliyyəti sahibkarlıq fəaliyyəti və idarəetmə ilə bağlı bacarıqların formalaşmasında və digər resursların bir araya gətirilərək istehsal prosesinə cəlb edilməsində həlledici amildir.

İstehsal texnologiyasını və yenilik yaratma potensialını inkişaf etdirməklə mal və xidmət istehsalında daha yüksək əlavə dəyərin formalaşmasına nail olmaq mümkündür və bu məqsədlə insan kapitalının inkişaf etdirilməsi yeni innovasiya tutumlu sahələrin yaradılmasına yol açacaqdır.

Qısamüddətli dövrdə iqtisadi artım mövcud resurslardan daha effektiv istifadə etməklə təmin oluna bilər. Bu adətən iki halda, ya boş qalan resurslar (əgər varsa) istifadəyə cəlb edilməklə, ya da məhsuldarlığın artırılması sayəsində mümkün olur.

Uzunmüddətli dövrdə isə iqtisadi artıma mövcud istehsal amillərinin kəmiyyət artımının təmin edilməsi, keyfiyyətinin yüksəldilməsi və ya hər iki vəziyyətin eyni zamanda reallaşması ilə nail oluna bilər.

Bununla yanaşı, qısamüddətli iqtisadi artım iqtisadiyyatda cari dövrdə əvvəlki dövrlə müqayisədə əmtəə və xidmətlərin istehsalındakı artımı, uzunmüddətli iqtisadi artım isə ÜDM-dəki dəyişmələrin fundamental meyillərini ifadə edir.

3.1.4 İqtisadi artım və insan kapitalı

İnkişafın əsas məqsədi insanlara uzun, sağlam və yaradıcı həyatlarından zövq almaları üçün əlverişli mühitin yaradılmasından ibarətdir. İnsan inkişafı bu baxımdan insanların seçim imkanlarının artırılması prosesidir.

İqtisad üzrə Nobel mükafatı laureatı Amartya Sen qeyd edir ki, "İnkişafın məqsədləri ilə vasitələri arasındakı əsas fərqin bilinməsi zəruridir. Bütün fəaliyyətlərin son məqsədi insanlardır və inkişaf insanların nailiyyətləri, azadlıqları və bacarıqları üzərində qurulmalıdır. Əsl əhəmiyyətli olan, fərdlərin yaşadığı həyatdır, əldə etdikləri mallar ya da gəlirləri deyil."

Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı tərəfindən 1990-cı ildən etibarən nəşr edilən İnsan İnkişafı Hesabatları, "iqtisadi artıma, yoxsa insan inkişafına fokuslanmalı?" sualının aktuallaşmasına öz töhfəsini vermişdir.

İqtisadi artım insan inkişafının davamlı yaxşılaşması üçün zəruri resursları təmin edir. Digər tərəfdən, əmək resurslarının keyfiyyətinin yaxşılaşması iqtisadi artım baxımından mühüm əhəmiyyət kəsb edir. Nəticə olaraq, insan inkişafı (insan kapitalı) ilə iqtisadi artım arasında qarşılıqlı əlaqə mövcuddur. Alıcılıq qabiliyyəti paritetinə (AQP) əsasən 96 ölkə üzrə hazırlanan paylanma qrafikində (Qrafik 1) bu əlaqəni aydın şəkildə müşahidə etmək mümkündür.

Qrafik 1. Hər nəfərə düşən Ümumi Daxili Məhsulun həcmi və İnsan İnkişafı İndeksi



Mənbə: Oxford Poverty & Human Development Initiative, University of Oxford.

Elmi ədəbiyyatda iqtisadi artımın dövlət, ev təsərrüfatları, ictimai və qeyri-hökumət təşkilatlarının fəaliyyətləri üzərindən insan inkişafına öz töhfəsini verdiyi göstərilir (Şəkil 3). Bu üç istiqamət arasında necə paylanmasından asılı olaraq eyni həcmdə ÜDM insan inkişafı üzərində çox müxtəlif təsirlərə səbəb ola bilər.

Şəkil 3. İqtisadi artım və insan inkişafı arasında qarşılıqlı əlaqə



Mənbə: Ranis, G., Stewart, F. & Ramirez, A. (2000). Economic Growth and Human Development, World Development, 28 (2): 197-219.

Belə ki, ev təsərrüfatlarının gəlirlərini xərcləmə meyili insan inkişafına bilavasitə töhfə verir. Məsələn, ərzaq, içməli su, təhsil xərcləri gəlirlərin səviyyəsindən və ev təsərrüfatları arasında bölgüsündən, təsərrüfat daxilində xərclərə kimin nəzarət etməsindən asılı olaraq dəyişir.

Ümumilikdə, əhalinin yoxsul təbəqəsinin gəlirləri artdıqca, gəlirin nisbi olaraq daha böyük hissəsi insan inkişafı ilə əlaqədar xərclərə yönəldilir. İnsan inkişafı xərcləri əhalinin yoxsul təbəqəsinin gəlirləri artdıqca yüksəlir. Beləliklə, daha yüksək və bərabər paylanan iqtisadi artım insan inkişafı xərclərini artırır.

Empirik araşdırmalara görə, ev təsərrüfatı xərcləri üzərində qadın nəzarəti yüksək olduqda insan inkişafı ilə əlaqədar mal və xidmətlərə daha çox vəsait ayrılır (məsələn, spirtli içki və siqaret xərclərinin azalması müqabilində ərzaq xərclərinin artması).

Dövlət sektoru xərclərinin nə qədərinin və hansı kanallarla insan inkişafına yönəldilməsi mühüm əhəmiyyətə malikdir. Ranis və digərləri (2000) bu baxımdan əsasən üç göstəricinin əhəmiyyətini xüsusi qeyd edirlər: dövlət xərclərinin ÜDM-ə nisbəti, dövlət xərclərində insan inkişafı ilə əlaqədar sosial ayırmaların payı və insan inkişafı ilə əlaqədar dövlət xərclərində insan inkişafı sektoru üzrə prioritet sahələrin payı.

İnsan inkişafı sektoru üzrə prioritet sahələr anlayışı insan inkişafında irəliləyişlərə nail olmaq baxımdan daha məhsuldar sahələri ifadə edir. Məsələn, ibtidai təhsil (xüsusilə, inkişafın ilkin mərhələsində) insan inkişafı üzərində ali təhsillə müqayisədə daha yüksək təsirə malikdir. Nəzərə almaq lazımdır ki, insan inkişafında hansı sahələrin prioritet olması ölkədən ölkəyə görə fərqlənir.

Ümumilikdə, iqtisadiyyatla insan inkişafı arasında qarşılıqlı əlaqənin mövcud olmasına baxmayaraq, bu rabitə öz-özünə yaranmır və iqtisadiyyatın strukturu, gəlirlərin bölgüsü, həyata keçirilən siyasət tədbirləri kimi bir sıra amillərdən asılıdır. İnsan inkişafına qoyulan xərclərin səmərəliliyinin artırılmasında əhəmiyyətli həlqələrdən biri də "insan inkişafını təkmilləşdirmə funksiyası"dır. Məsələn, bu istehsal funksiyasında əsas amillərdən birini körpə ölümlərinin azalmasında və qidalanmanın yaxşılaşmasında mühüm rol oynayan qadınların təhsili təşkil edir.

İnsan inkişafının yüksək səviyyəsi insanların imkanlarının genişlənməsi, nəticədə onların yaradıcılığı və məhsuldarlığı sayəsində iqtisadiyyata təsir göstərir. İnsanların daha yaxşı qidalanması, təhsili və sağlamlığı yüksək əmək məhsuldarlığı, təkmilləşdirilmiş texnologiya və yüksək ixrac vasitəsilə iqtisadi artıma daha çox yardım edir.

Gəlirlərin artması öz növbəsində əlavə təhsilə, yəni təhsil illərinin uzanmasına da yol açır. Təhsilin daha əhatəli olması, aztəminatlı insanların iqtisadi imkanlara çıxışını yaxşılaşdırdığından uzunmüddətli dövrdə gəlirlərin bölgüsünü təkmilləşdirir. Öz növbəsində təkmilləşmiş gəlir bölgüsü də iqtisadi artıma

müsbət təsir göstərir. Xüsusilə yoxsul insanlar arasında sağlamlıq və qidalanmadakı yaxşılaşma, əmək məhsuldarlığına birbaşa təsiri edir.

Aydındır ki, sadəcə təhsil və səhiyyə ilə iqtisadiyyatın transformasiyasına nail olmaq mümkün deyil. Daxili və xarici investisiyaların həcmi və xüsusiyyəti, ümumi siyasi şərait iqtisadi fəaliyyətin mühüm determinantları rolunda çıxış edir. Eyni zamanda insan inkişafının səviyyəsi də bu amillərdən təsirlənir. Yenə qeyd edilməlidir ki, insan inkişafı ilə iqtisadi artım arasındakı əlaqə də özözünə yaranmır. Məsələn, təhsilli insanların sayının artırılması yetərli deyil, əgər məhsuldar məşğulluq imkanları mövcud deyilsə, bu sadəcə təhsilli işsizlərin sayının artmasına səbəb ola bilər. Ümumi siyasi çərçivə, yığımların və investisiyaların səviyyəsi, texnologiya seçimləri təhsilli işçi qüvvəsi üçün zəruri tələbi fomalaşdırmalıdır.

Empirik nəticələr adambaşına ÜDM-in artımı ilə körpə ölümlərində azalma arasında əhəmiyyətli dərəcədə müsbət əlaqənin mövcudluğunu göstərir. Belə ki, adambaşına gəlirlərdəki yüksək artım insan inkişafında tərəqqiyə səbəb olur. Həmçinin araşdırmalar insan inkişafında tərəqqi ilə yoxsulluq səviyyəsi və Cini əmsalı arasında əhəmiyyətli dərəcədə mənfi əlaqənin, ümumi ibtidai təhsildə qızların qeydiyyat səviyyəsi və dövlətin səhiyyə və təhsil xərclərinin ÜDM-də payı arasında isə müsbət əlaqənin mövcudluğunu ortaya qoyur. Eyni zamanda, iqtisadi artımla həm ümumi daxili investisiyaların ÜDM-ə nisbəti arasında, həm də insan inkişafındakı tərəqqinin müxtəlif parametrləri - savadlılıq səviyyəsi, savadsızlığın azalması, gözlənilən ömür uzunluğu - arasında əhəmiyyətli dərəcədə əlaqənin olduğunu göstərir.

Qısacası, bütün bunlar insan inkişafı ilə iqtisadi artım arasında müxtəlif kanallarla mövcud olan qarşılıqlı əlaqənin əhəmiyyətini sübut edir. Bu eyni zamanda daha yaxşı nəticələrə müxtəlif alternativlərlə nail olmağın da mümkünlüyünü göstərir.

İnsan inkişafında ciddi tərəqqi əldə edən ölkələrin təcrübəsinə dayanaraq qeyd edə bilərik ki, ümumilikdə dövlət xərclərində sosial ayırmaların payının və təhsildə qeydiyyat əmsalının yüksək olması mühüm əhəmiyyət kəsb edir. Məsələn, yüksək iqtisadi artıma baxmayaraq dövlət xərclərində sosial ayırmaların aşağı olması səbəbindən zəif insan inkişafı müşahidə edilə bilər. Həmçinin yüksək insan inkişafına baxmayaraq resursların məhdudluğu səbəbindən investisiyaların yetərsiz olması zəif iqtisadi artıma yol açacaqdır. Aydındır ki, belə birtərəfli inkişaf davamlı xarakter ala bilməz və qarşılıqlı təsirlənmə nəticəsində pis və ya yaxşı tsikllə əvəz olunacaqdır.

3.2 Rifah və həyat standartları

3.2.1 Rifah məfhumu

Rifah anlayışı, fərdlərin layiqli gəlir səviyyəsinə sahib olduğu, fizioloji tələbatları ilə yanaşı sosial və mədəni ehtiyaclarının da ödəndiyi inkişaf etmiş cəmiyyəti ifadə edir. Buna müvafiq olaraq, rifah dövləti də ictimai mənafeyi ön planda tutan, bazar iqtisadiyyatına əsaslanan bir anlayışı təmsil edir. Sosial rifah dövlətinin başlıca məqsədləri aşağıdakılardır:

- bütün ölkə vətəndaşları üçün minimum yaşayış səviyyəsini və standartlarını təmin etmək;
- gəlirlərin ədalətli bölgüsünə nail olmaq;
- ictimai mal və xidmətlərin təklifini artırmaq və bunun davamlılığını təmin etmək;
- regional qeyri-tarazlıqları aradan qaldırmaq;
- iqtisadi qeyri-stabilliklərin qarşısını almaq;
- imkan bərabərliyini təmin edərək fərdlərə maksimum seçim azadlığı vermək və s.

Ümumiyyətlə, rifah dövləti anlayışında dövlət mənzil, səhiyyə, təhsil, iş və s. ictimai tələbatların təmin edilməsindən məsuldur. Yuxarıda da qeyd edildiyi kimi, sosializmdən fərqli olaraq rifah dövlətində ictimai tələbatlar sərbəst rəqabətə əsaslanan bazar iqtisadiyyatı və özəl mülkiyyətin toxunulmazlığı şəraitində böyük büdcə xərcləri vasitəsi ilə və hətta bəzi fəaliyyətlər birbaşa dövlətə məxsus müəssisələr vasitəsilə təmin olunur.

Rifah səviyyəsinin yüksəldilməsi üçün dövlətin əlində bir sıra alətlər mövcuddur:

- artan dərəcəli vergiləndirmə;
- sosial müdafiə və işsizlik müavinətləri;
- kənd təsərrüfatı istehsalçılarını dəstəkləmə siyasətləri;
- ödənişsiz və ya aşağı qiymətlərlə təhsil;
- səhiyyə, mənzil kimi ictimai infrastruktur investisiyaları və s.

Burada büdcə xərcləri ilə iqtisadi artım arasındakı əlaqənin yönünə dair iki fərqli yanaşmanın mövcudluğundan da qısaca bəhs etmək yerinə düşər. Daha əvvəl də bildirdiyimiz kimi, Keynsçi yanaşmada dövlət xərcləri ekzogen amil kimi iqtisad artımın səbəbi rolunda çıxış edir. Yəni, dövlət xərcləri sayəsində tələbi canlandırmaqla iqtisadi artımın stimullaşdırılması hədəflənir. "Vaqner qanunu" olaraq məşhurlaşan alternativ yanaşmaya görə isə dövlət xərcləri endogen dəyişəndir. Belə ki, rifah dövləti anlayışına uyğun olaraq, iqtisadi artım tempi özündən daha yüksək nisbətdə büdcə xərclərinin artmasına yol açır.

3.2.2 Həyat standartları və onun indikatorları

Həyat standartları insanların gəlir səviyyəsi, yığımları, istehlak xərcləri içərisində qeyri-ərzaq mallarının xüsusi çəkisi, səhiyyə xidmətlərindən istifadə səviyyəsi və s. kimi olduqca müxtəlif amillərlə birbaşa əlaqəlidir. Bu baxımdan həyat standartları ölçülərkən ayrı-ayrı məqsədlər ön plana çıxır.

Məqsədlərin müxtəlifliyi araşdırılan indikatorların və istifadə edilən alətlərin də sayının artmasına səbəb olmuşdur. Cədvəl 1-də həyat standartlarını ölçmək üçün qarşıya qoyulan məqsədlər və bunlara müvafiq olaraq istifadə edilən alətlər öz əksini tapmışdır.

Cədvəl 1. Həyat standartlarının ölçülməsi: Məqsədlər və araşdırma alətləri

Məqsədlər	İndikatorlar	Alətlər
Fərdi və ev təsərrüfatlarının rifahının ölçülməsi		
• Səviyyələr, bölgü və korrelyasiyalar	• İstehlak • Gəlir • Sərvət, yığım • İnsan kapitalı • Antropometriya	• Ev təsərrüfatı sorğu anketi • Qiymət sorğu anketi
Siyasətin analizi		
• Dövlət xərclərindən/ proqramlarından faydalananlar • Dövlət xərclərinin/ proqramlarının təsiri • Təklif edilən xidmətlər • Xidmətlərin keyfiyyəti • Xidmətlərin qiyməti • İqtisadi siyasətlərin effekti	• Xidmətlərdən istifadə • Xidmətləri və transfertləri alanlar • Xidmətlərin maliyyəti • Siyasətlərin təsiri • Ən yaxın xidmətə olan məsafə • Təmin edilən xidmətlərin çeşidi • İşçi, büdcə, digər daxilolmalar • Sektorlararası xalis transfertlər	• Ev təsərrüfatı sorğu anketi • İctimai sorğu anketi • İmkanlar sorğu anketi • Qiymət sorğu anketi
Determinantların müəyyənləşdirilməsi		
• Müşahidə edilən nəticələrin ortaya çıxma səbəbləri • Ev təsərrüfatlarının davranışına təsir edən amillər	• Ev təsərrüfatının tərkibi, insan kapitalı, rifah, əldə edilə bilən xidmətlər və s.	• Ev təsərrüfatı sorğu anketi • İctimai sorğu anketi • İmkanlar sorğu anketi • Qiymət sorğu anketi

Mənbə: Scott, K., Steele, D. & Temesgen, T. (2005). Living Standards Measurement Study Surveys, Household Sample Surveys in Developing and Transition Countries, United Nations.

Göründüyü kimi, həyat standartlarının ölçülməsi məqsədilə əsasən dörd araşdırma alətindən istifadə edilir:

- Ev təsərrüfatı sorğu anketi: Bu anketlə məlumatlar ev təsərrüfatlarından və individual kanallardan əldə edilir. Məlumatlar ev təsərrüfatlarının iqtisadi fəaliyyət növləri (kənd təsərrüfatı və ev təsərrüfatı müəssisələri) ilə əlaqədardır.

- İctimai sorğu anketi: Ev təsərrüfatlarının fəaliyyət göstərdiyi iqtisadi mühitlə əlaqədar (mövcud xidmətlər, iqtisadi fəaliyyətlər, bazarlara giriş, sosial kapital və s.) məlumatlar toplanılır.

- Qiymət sorğu anketi: Ev təsərrüfatlarının həyat standartlarına təsir edən

maliyyət amillərini araşdırır.

- İmkanlar sorğu anketi: Ev təsərrüfatları tərəfindən istifadə edilən və lokal xidmət təchizatçılarının təklif etdiyi xidmətlərin keyfiyyət amillərini araşdırır.

Rifah səviyyəsini ölçmək üçün müxtəlif mənbələrə, o cümlədən beynəlxalq hesabatlara istinad olunmaqla Economic Intelligence Unit tərəfindən hazırlanan Həyat Keyfiyyəti İndeksi aşağıdakı doqquz göstəricini ehtiva edir:

- sağlamlıq;
- ailə həyatı;
- ictimai həyat;
- maddi rifah;
- siyasi stabillik və təhlükəsizlik;
- iqlim və coğrafiya;
- iş təhlükəsizliyi;
- siyasi azadlıqlar;
- gender bərabərliyi.

Bir sıra ölkələrdə hər nəfərə düşən ÜDM-in həcminin yüksək olmasına baxmayaraq, yaşayış keyfiyyətinin aşağı olması iqtisadi artımın iqtisadi inkişafla dəstəklənmədiyini ortaya qoyur.

Həyat standartlarını ölçmək üçün alternativ yanaşmalardan biri də, Cənubi Afrikanın İctimai Tədqiqatlar Fondu (South African Audience Research Foundation, SAARF) tərəfindən hazırlanmışdır və marketinq araşdırmalarında geniş istifadə edilir. Bu metodun digərlərindən əsas fərqi ondadır ki, bu zaman gender bərabərliyi, urbanizasiya səviyyəsi və s. kimi indikatorların əvəzinə həyat standartı baxımından daha konkret göstəricilər (mənzil, isti su, paltaryuyan maşın, kompüter və s.) nəzərə alınır.

3.3 Sosial-iqtisadi fenomen kimi yoxsulluq

3.3.1 Yoxsulluğa dair əsas anlayışlar

Bəşər tarixinin hər mərhələsində mövcud olan yoxsulluq, sadəcə iqtisadi deyil, sosial və əxlaqi xüsusiyyətləri ilə birlikdə kompleks problemdir. Qeyd edək ki, Minilliyin İnkişaf Məqsədlərindən ən birincisi məhz ifrat yoxsulluğun və aclığın aradan qaldırılmasından ibarətdir. Bu məqsəd özündə üç hədəfi birləşdirir:

- 1990 və 2015-ci illər arasında gündəlik gəliri 1 ABŞ dollarından az olan əhalinin nisbətini yarıyadək azaltmaq;
- qadınlar və gənclər də daxil olmaqla hər kəsə layiqli iş təmin etməklə tam və məhsuldar məşğulluğa nail olmaq;
- 1990 və 2015-ci illər arasında aclıqdan əziyyət çəkən əhalinin nisbətini yarıyadək azaltmaq.

Beynəlxalq təcrübədə yoxsulluq anlayışını izah etmək üçün vahid yanaşma mövcud deyil və ədəbiyyatda yoxsulluqla bağlı əsasən aşağıdakı yanaşmalara rast gəlmək mümkündür:

- mütləq yoxsulluq yanaşması;
- nisbi yoxsulluq yanaşması;
- subyektiv yoxsulluq yanaşması;
- məhrumiyyət yanaşması;
- insani yoxsulluq yanaşması;
- çoxfaktorlu yoxsulluq yanaşması.

Göründüyü kimi, əhalinin həyat səviyyəsinin qiymətləndirilməsi ilə bağlı müxtəlif yanaşmaların olması səbəbindən yoxsulluq anlayışına verəcəyimiz tərif də yoxsulluq səviyyəsini hansı metodoloji yanaşma ilə ölçməmizə görə dəyişəcəkdir.

Mütləq yoxsulluq yanaşmasında yoxsulluq səviyyəsi ümumi gəlirlə, sərəncamda qalan minimum gəlirlə və ya istehlak səviyyəsi ilə əlaqələndirilir. Məsələn, Dünya Bankı tərəfindən yoxsulluq səviyyəsi az inkişaf etmiş ölkələr üçün alıcılıq qabiliyyəti paritetinə görə bir nəfər üçün gündəlik 1,25 ABŞ dolları, inkişaf etməkdə olan ölkələr üçünsə 2 ABŞ dolları səviyyəsində müəyyənləşdirilmişdir. Bu metod məlumatların əldə edilməsi və ölçülmə baxımından asan olsa da, real mənzərəni tam əks etdirmir.

Öz növbəsində, Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı iş qabiliyyətinin bərpa olunması ilə bağlı əsas ehtiyacların ödənilməsi məqsədilə bir nəfər üçün gün ərzində tələb olunan qida istehlakının enerji dəyərinin 2100 kilokalori səviyyəsində olduğunu bildirir.

Nisbi yoxsulluq yanaşmasına görə isə bir ölkədə (və ya regionda) ortalama həyat standartları üçün tələb olunan xərclərin səviyyəsi gəlirlərindən yüksək olan fərdlər (və ya ailələr) yoxsul sayılırlar. Ona görə də nisbi yoxsulluq standartı hər bir cəmiyyət üçün fərqli olmaqla birlikdə, həm də ümumi rifah səviyyəsinin dəyişməsindən asılıdır.

Subyektiv yoxsulluq yanaşmasında fərdlərin yoxsul olub-olmadıqları yalnız onların öz rəyləri (sorğu) əsasında müəyyən edilir. Subyektivlik amilinə baxmayaraq, sosial bir problem kimi yoxsulluğun qiymətləndirilməsində nisbətən daha məqbul yanaşmadır.

Məhrumiyyət yanaşması yoxsulluğu sosial təcridin bir növü kimi qəbul edir. Yəni, yaşayış səviyyələri həm fiziki, həm də sosial baxımdan yaşadıqları cəmiyyətdə hakim olan həyat standartlarından əhəmiyyətli dərəcədə aşağı olanlar yoxsul hesab edilir.

İnsan həyatına yoxsulluğun birbaşa və dolaylı təsirlərini (savadsızlıq, aclıq, qidalanma, xəstəliklərlə mübarizə və s.) nəzərə alan və 1997-ci ildən etibarən Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının İnsan İnkişafı Hesabatla-

rında öz əksini tapan insani yoxsulluq anlayışı Nobel mükafatı laureatı Amartya Sen tərəfindən irəli sürülən qabiliyyət yanaşmasına əsaslanır. İnsani yoxsulluq fundamental insani imkanlardan məhrum olmaq şəklində də tərif edilə bilər və imkanların davamlılığını və keyfiyyətli həyatı təmin edən mal və xidmət infrastrukturuna (enerji, gigiyena, təhsil, səhiyyə, kommunikasiya, içməli su və s.) əlyetərliliyin olmaması və ya məhdudluğu formasında özünü büruzə verir.

İnsan inkişafı ilə bağlı 2010-cu ilin hesabatında Oxford Universiteti ilə birlikdə insani yoxsulluq yanaşması daha da inkişaf etdirilərək Çoxfaktorlu Yoxsulluq İndeksi təqdim olunmuşdur. Məlum olduğu kimi, İnsan İnkişafı İndeksi üç alt indeksə əsaslanır ki, bunlardan biri yaşayış standartlarıdır. Yaşayış standartları da öz növbəsində adambaşına ÜDM göstəricisi ilə müəyyən edilir. Digər tərəfdən Çoxfaktorlu Yoxsulluq İndeksi təhsil illəri, içməli su kimi İnsan İnkişafı İndeksinin əhatə etdiyi bir sıra alt göstəriciləri ehtiva edir (cədvəl 2). Bu baxımdan çoxfaktorlu yoxsulluq yanaşmasının ortaya qoyulması ilə birlikdə "yoxsulluğa qarşı mübarizədə iqtisadi artıma, yoxsa insan inkişafına fokuslanmalı?" sualı da xüsusi əhəmiyyət qazanmışdır.

3.3.2 Yoxsulluq səviyyəsinin ölçülməsi

Yoxsulluq səviyyəsinin ölçülməsində ən yeni yanaşma olan Çoxfaktorlu Yoxsulluq İndeksi (ÇYİ) fərdlərlə bağlı səhiyyə, təhsil və yaşayış standartı üzrə bir sıra çatışmazlıqları nəzərə alır. Bu məqsədlə ev təsərrüfatları üzrə sorğu anketlərindən əldə edilən məlumatlardan istifadə olunur. Həmin məlumatlar daha sonra milli yoxsulluq səviyyəsini əldə etmək üçün ümumiləşdirilir.

Cədvəl 2. Çoxfaktorlu Yoxsulluq İndeksinin komponentləri

Çoxfaktorlu Yoxsulluq İndeksi		
Həyat standartları	**Təhsil**	**Səhiyyə**
• Maşın və avadanlıq • Evin döşəməsi • Elektrik • İçməli su • Sanitariya • Mətbəx yanacağı	• Təhsil illəri • Məktəbə davamiyyət	• Uşaq ölümü • Qidalanma

Mənbə: Human Development Report 2010.

Cədvəl 2-dən göründüyü kimi ÇYİ 3 göstəricidən və həyat standartları üzrə 6, təhsil və səhiyyənin hər biri üzrə 2 olmaqla, ümumilikdə 10 alt komponentdən (d) ibarətdir. Ev təsərrüfatı hansı komponent üzrə mənfi nəticəyə sahibdirsə, təsərrüfata daxil olan hər bir fərdə həmin komponent üzrə bal verilir.

Maksimum bal 10-dur və bu bal 3 göstərici arasında bərabər paylanılır (10⁄3=3,33). Daha sonra hər bir göstəricinin sahib olduğu bal alt komponentlər arasında bərabər şəkildə paylanılır. Beləliklə, həyat standartlarının alt komponentlərinin hər biri 0,56 bal (3,33⁄6=0,56) alır. Təhsil və səhiyyənin hər biri 2 alt komponentdən ibarət olduğu üçün bu komponentlər də 1,67 bal (3,33⁄2=1,67) alır. Daha dəqiq ifadə üçün hesablamada 0,56 yerinə 5/9, 1,67 əvəzinə isə 5/3 əmsalından istifadə edilir. Aydın olduğu kimi, ev təsərrüfatı qeyd edilən komponentlərin hamısı üzrə mənfi nəticəyə sahibdirsə təsərrüfat üzvləri maksimum bal, yəni 10 bal almış olacaqlar.

Ev təsərrüfatında ən azı bir nəfər yetərsiz qidalanan şəxs varsa, bir və ya daha artıq uşaq ölümü baş veribsə, bunlar səhiyyə üzrə mənfi nəticə (məhrumiyyət) kimi qəbul edilir. Əgər ev təsərrüfatında məktəbdə beş təhsil ilini tamamlamış şəxs yoxdursa, ən azı bir nəfər məktəb yaşına çatmış (8-ci sinifə qədər), lakin məktəbə getməyən uşaq varsa təhsil üzrə mənfi hal sayılır. Həmçinin, elektrik enerjisinin, təmiz içməli suyun, müvafiq sanitariyanın olmaması, yemək bişirmək məqsədilə "çirkli" yanacaqdan (peyin, odun və ya kömür) istifadə edilməsi, evin torpaq döşəməli olması, avtomobil, yük maşını və ya bənzər motorlu vasitələrə malik olmamaq, velosiped, motosiklet, radio, soyuducu, telefon və ya televizor kimi əmlaklardan maksimum birinə sahib olmaq həyat standartı baxımından qeyri-məqbul hesab edilir.

Bir qayda olaraq, ev təsərrüfatı üzrə balların cəmi (c) 3-ə bərabər və ya ondan böyükdürsə, həmin təsərrüfat çoxfaktorlu yoxsul sayılır. Balların cəmi 2 ilə 3 arasında dəyişirsə, ev təsərrüfatı çoxfaktorlu yoxsuluq baxımından həssas və ya riskli olaraq qəbul edilir.

ÇYİ yoxsulluq nisbəti (H) ilə yoxsulluğun intensivliyinin (A) hasilinə bərabərdir:

$$\text{"ÇYİ"}=H\times A$$

Yoxsul ev təsərrüfatlarının sayı n, i-ci yoxsul ev təsərrüfatı əhalisinin sayı p_i, cəmi ölkə əhalisi N olarsa, yoxsulluq nisbətini aşağıdakı düstur vasitəsi ilə hesablaya bilərik:

$$H = \sum_{i=1}^{n} p_i / N$$

Öz növbəsində yoxsulluğun intensivliyi də riyazi olaraq aşağıdakı kimi ifadə edilir:

$$A = \sum_{i=1}^{n} c_i p_i / d \sum_{i=1}^{n} p_i$$

İndi isə sadə bir misalla ÇYİ-nin necə hesablandığını göstərək. İlk əvvəl nümunəvi sorğu anketinin nəticələri (cədvəl 3) əsasında dörd ev təsərrüfatının hər biri üzrə balları hesablayırıq:

c_1=5/9+5/3=2,22
c_2=5/9+5/9+5/9+5/9+5/3=3,89
c_3=5/9+5/9+5/3=2,78
c_4=5/9=0,56

Göründüyü kimi dörd ev təsərrüfatından biri yoxsuldur, ikisi isə riskli qrupa daxildir.

Daha sonra yoxsulluq nisbətini tapırıq:

$$H = \sum_{i=1}^{n} p_i/N = 7/(4+7+5+3) = 0{,}37$$

Nəticəyə əsasən əhalinin 37%-nin yoxsul olduğunu deyə bilərik.

Cədvəl 3. Çoxfaktorlu Yoxsulluq İndeksinin hesablanması

Göstərici	Ev təsərrüfatı				Əmsal
	1	2	3	4	
Ev təsərrüfatının böyüklüyü (nəfər)	4	7	5	3	
Həyat standartları					
Ev təsərrüfatında avtomobil yoxdur, velosiped, motosiklet, radio, soyuducu, telefon və ya televizor kimi əmlaklardan maksimum birinə sahibdir	0	0	0	0	5/9=0,56
Ev torpaq döşəməlidir	0	0	0	0	5/9=0,56
Ev təsərrüfatı elektrik enerjisi ilə təmin olunmayıb	0	1	1	1	5/9=0,56
Ev təsərrüfatının təmiz içməli suya çıxışı yoxdur	0	1	0	0	5/9=0,56
Ev təsərrüfatının müvafiq sanitariyaya çıxışı yoxdur	0	1	0	0	5/9=0,56
Ev təsərrüfatı mətbəxdə "çirkli" yanacaqdan istifadə edir	1	1	1	0	5/9=0,56
Təhsil					
Ev təsərrüfatı üzvlərindən heç kim məktəbdə beş təhsil ilini tamamlamayıb	0	0	0	0	5/3=1,67
Ev təsərrüfatında ən azı bir nəfər məktəbə getməyən məktəbyaşlı uşaq var	0	0	1	0	5/3=1,67
Səhiyyə					
Ev təsərrüfatında bir və ya daha artıq uşaq ölümü baş verib	0	1	0	0	5/3=1,67
Ev təsərrüfatının ən azı bir üzvü yetərsiz qidalanır	1	0	0	0	5/3=1,67
Nəticələr					
Ev təsərrüfatının toplam balı (c)	2,22	3,89	2,78	0,56	
Ev təsərrüfatı yoxsuldurmu ($c > 3$)?	Yox	Hə	Yox	Yox	
Qeyd: "1" məhrum olmanı (çatışmazlığı), "0" isə əksini ifadə edir.					

Ev təsərrüfatlarının 25%-nin (4-də 1-nin) yoxsul olmasına baxmayaraq, yoxsul ev təsərrüfatı daha geniş (7 nəfər) olduğu üçün əhalinin yoxsulluq nisbəti də yüksəkdir (37%).

Sonda yoxsulluğun intensivliyini və ÇYİ-ni hesablayırıq:

$$A = \sum_{i=1}^{n} c_i p_i / d \sum_{i=1}^{n} p_i = (3{,}89 \times 7)/(10 \times 7) = 0{,}39$$

$$\text{ÇYİ} = H \times A = 0{,}37 \times 0{,}39 = 0{,}14$$

3.3.3 Yoxsulluq səviyyəsinin azaldılması siyasətləri

Müxtəlif ölkələrdə fərqli şəkillərdə təzahür edən yoxsulluğun başlıca səbəbləri sırasında iqtisadi, siyasi, sosial amillərlə yanaşı ətraf mühit və coğrafi xüsusiyyətlər də qeyd edilir. Yoxsulluq səviyyəsinin azaldılması istiqamətində həyata keçirilən siyasətlərin effektivliyi yoxsulluğun səbəblərinin düzgün diaqnozundan birbaşa asılıdır.

Adətən yüksək səviyyəli yoxsulluq aşağı iqtisadi artım tempi və gəlirlərin bölgüsündə ciddi bərabərsizliklərlə birlikdə müşahidə edilir. Ona görə də dayanıqlı və əlverişli makroiqtisadi mühitin mövcudluğu iqtisadi inkişafla yanaşı, yoxsulluq səviyyəsinin ixtisarı baxımından da mühüm əhəmiyyət kəsb edir. Bu çərçivədə makro səviyyədə üç göstəriciyə xüsusi diqqət yetirilir: qiymət stabilliyi, tam məşğulluq və xarici sektorun balansı (tədiyyə balansı). Ənənəvi siyasət alətləri rolunda isə fiskal, monetar və valyuta məzənnəsi siyasətləri çıxış edir. Çoxfaktorlu yoxsulluq nöqteyi-nəzərdən qeyd etmək lazımdır ki, makroiqtisadi siyasətlər gəlirlərin bölgüsü nümunəsində olduğu kimi mikro təsirlərə də sahibdir və ya əksinə, mikro səviyyədə fəaliyyətlər (məsələn, mikromaliyyələşmə) makro səviyyədə də öz təsirlərini büruzə verir.

Valyuta məzənnəsi, inflyasiya səviyyəsi və faiz dərəcələrinin yoxsulluğa təsiri düzgün qiymətləndirilməlidir. Belə ki, real valyuta məzənnəsi ölkənin rəqabət qabiliyyətinə və buradan da iqtisadi artım tempinə (o cümlədən, investisiya qoyuluşlarına, məşğulluğa, kredit bazarına), dolayısilə yoxsulluq səviyyəsinə təsir göstərir. Eyni zamanda, real valyuta məzənnəsinin dəyişməsi (məsələn, devalvasiya) yoxsulluq üzərində ərzaq qiymətləri, real əməkhaqqı səviyyəsi və s. formasında birbaşa təsirlərə də malikdir.

Digər tərəfdən, yoxsul insanların gəlirləri əsasən sabit olduğu üçün, yüksək inflyasiya "inflyasiya vergisi" formasında onların real gəlirlərinin azalmasına yol açır. Nəzərə almaq lazımdır ki, yüksək inflyasiya şəraitində əməkhaqqı səviyyəsi əksər hallarda ümumi qiymətlərlə müqayisədə daha aşağı templə artır. Yüksək inflyasiya iqtisadiyyatda qeyri-müəyyənliklərin və risklərin artmasına, nəticədə investisiya qərarlarının ertələnməsinə və məşğulluq artımının məhdudlaşmasına səbəb olur. Həmçinin, yüksək gəlirlilər inflyasiya effektini alternativ maliyyə

alətləri vasitəsilə kompensasiya edə bildiyi halda, adətən aşağı gəlirlilər bu imkanlardan məhrum olduqları üçün gəlirlərin bölgüsü daha da pisləşir.

Nəhayət, yoxsul təbəqə üçün faiz dərəcələrinin məqbul səviyyədə qorunması və kreditlərə əlyetərliliyin təmin olunması zəruridir ki, bu çərçivədə kommersiya bankları, mikromaliyyə institutları və bank olmayan kredit təşkilatları mühüm rol oynaya bilərlər:

- Kommersiya bankları: Əhalinin geniş təbəqəsinin maliyyə vəsaitlərinə əlçatanlığının təmin olunması, bank filiallarının bütün bölgələri əhatə etməsi yoxsulluq səviyyəsinin azaldılması baxımdan olduqca vacibdir və bir sıra ölkələrdə aparılan empirik araşdırmalar göstərir ki, kiçik həcmli kreditlərin geri qaytarılma ehtimalı böyük həcmli kreditlərdən daha yüksəkdir.

- Mikromaliyyə institutları: Kiçik sərmayə şəklində təmin edilən mikrokredit, yoxsulluğun azaldılmasında, xüsusilə qadın yoxsulların rifah səviyyələrinin artırılmasında effektiv bir vasitədir. Mikrokreditlər yolu ilə təşəbbüskarlıq ruhuna sahib olan, ancaq sərmayəsi olmayan yoxsullara daha sadə şərtlərlə kiçik miqyasda kredit verilməkdə və beləcə yoxsullar istehsalçı hala gətirilərək gəlirləri artırılmaqdadır.

- Bank olmayan kredit təşkilatları: Əsas müştəri təbəqəsini kiçik sahibkarlar və kənd təsərrüfatı istehsalçıları təşkil etdiyi üçün bank olmayan kredit təşkilatları yoxsulluğun ixtisarında əsas vasitələrdən biri kimi diqqəti cəlb edir.

Dövlət vergi, sosial müdafiə, sosial yardım, səhiyyə və təhsil kimi sahələrdə həyata keçirilən tədbirlər vasitəsilə milli gəlirin təkrar bölgüsü prosesində fəal iştirak edir. Həmçinin, fürsət bərabərliyinin təmin edilməsi, yoxsul qrup və fərdlərin cəmiyyətdən təcridinin qarşısının alınması, bütün hüquqlarının təminat altına alınması, yoxsulların istifadə etdiyi mal və xidmətlərə subsidiyaların verilməsi, minimum əməkhaqqı, məşğulluğu artıran müxtəlif tədbirlər, uşaqların təhsili və qidalanması proqramları ön plana çıxır.

Yoxsulluq səviyyəsinin azaldılmasına yönəldilən ünvanlı tənzimlənməyə nail olmaqla yanaşı, dövlət tərəfindən prioritet sektorların müəyyənləşdirilməsi, özəl investisiyaların bu sahələrə cəlbinin müxtəlif metodlarla (vergi endirimləri və ya vergidən azadolmalar, müəyyən xərclərdə dövlətin iştirakı, ucuz və uzunmüddətli kreditlər, logistika, infrastruktur və məsləhət dəstəkləri və s.) təşviq edilməsi, milli investisiya agentliklərinin formalaşdırılması, dövlət-özəl sektor əməkdaşlığının inkişaf etdirilməsi, resursların yerində və effektiv istifadəsini təmin etməklə və lokal potensialı hərəkətə keçirməklə regional inkişafın sürətləndirilməsi, regionlararası və regondaxili inkişaf fərqlərinin azaldılması, inkişafda davamlılığın təmin edilməsi zəruridir.

Yoxsulluğu doğuran səbəbləri müəyyənləşdirmək və onları aradan qaldırmaq, qısaca yoxsulluqla effektiv mübarizə aparmaq məqsədilə komissiya, şura və komitələr təşkil olunur. Bəzi ölkələrdə bu istiqamətdə daha yüksək səviyyədə

institusionallaşma mövcuddur (birbaşa prezidentə və ya baş nazirə bağlı yoxsulluqla mübarizə təşkilatı, yoxsulluqla mübarizə nazirliyi və s.). İstənilən halda bütün maraqlı tərəflər, xüsusilə təhsil, səhiyyə, sosial müdafiə, iqtisadi inkişaf, strateji planlaşdırma və s. ilə bağlı müvafiq dövlət qurumları öz fəaliyyətlərini koordinasiyalı şəkildə qurmalıdırlar.

İnkişaf etmiş ölkələrdə yoxsulluq problemi ilə mübarizə institusional xarakter daşıyır və bu tədbirlərin ana xətləri aşağıdakı kimi ümumiləşdirilə bilər:

- inkişaf etmiş fərdi pensiya sistemlərinin mövcudluğu;
- qeyri-formal məşğulluqla ciddi şəkildə mübarizə və effektiv cəzalandırma metodlarının tətbiq edilməsi;
- işəgötürənin sosial müdafiə fonduna köçürmələri;
- əmək münasibətlərində çalışanlar lehinə qanunvericilik tənzimləmələri;
- minimum əməkhaqqının üçlü mexanizmlə (işəgötürən-işçi-dövlət) müəyyənləşdirilməsi;
- əməkhaqqlarının və çalışanlarla əlaqədar digər münasibətlərin müəyyənləşdirilməsində işçi həmkarlar ittifaqına geniş səlahiyyətlərin verilməsi;
- işçi həmkarlar ittifaqlarında daxili demokratik qaydaların yerləşməsinə nəzarət edilməsi.

Əksər inkişaf etməkdə olan ölkələrdə isə təkmil bir mexanizmin mövcudluğundan bəhs etmək çətindir. Bu ölkələrdə yoxsulluqla mübarizə institusional olmaqdan çox aşağıdakı xüsusiyyətləri özündə cəmləşdirməklə ənənəvi xarakter daşıyır:

- ailə bağlarının əhəmiyyəti;
- sosial yardımlaşma;
- bələdiyyə kimi lokal idarəetmə qurumlarının əvəzsiz yardım paketləri;
- mərkəzi dövlət strukturları tərəfindən ünvanlı sosial yardımlar;
- beynəlxalq təşkilatların donorluğunda yerli qeyri-hökumət təşkilatlarının yardımları.

Ümumilikdə isə, yoxsulluqla mübarizədə milli infrastruktur formalaşdırılmalı, bir sıra beynəlxalq qurumlar tərəfindən dəstəklənən müəyyən layihələr və lokal qeyri-hökumət təşkilatlarının fəaliyyətləri yoxsulluq probleminə kompleks yanaşma çərçivəsində əlaqələndirilməlidir. Belə ki, yoxsulluğa qarşı qlobal mübarizədə beynəlxalq təşkilatlar ön plana çıxmışdır. Bunların başında, əsas vəzifəsi yoxsulluqla mübarizə olan Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı gəlir və bu qurum yoxsulluqla əlaqədar demək olar ki, bütün sahələrdə lokal təşəbbüsləri dəstəkləyir. Dünya Bankı da, xüsusilə 1990-cı illərdən sonra inkişaf etməkdə olan ölkələrdə yoxsulluğun önlənməsi ilə əlaqədar fəaliyyət göstərən beynəlxalq təşkilatlardan biridir və bununla bağlı üç məsələni xüsusi qeyd edir:

- İmkanlar: Yoxsullar davamlı olaraq maddi imkanların əhəmiyyətinə işarə edirlər. Bu imkanların yaradıla bilməsi üçün ən başda iqtisadi artım olmaqla, investisiyaların və texnoloji inkişafın təmin edilməsi vacibdir. Bu baxımdan, stabil fiskal və monetar siyasətlərlə, sadə və şəffaf tənzimləmələr yolu ilə özəl investisiyaların önü açılmalıdır.
- Səlahiyyətlər: Dövlətin və sosial qurumların funksiyalarının təkmilləşdirilməsi istiqamətindəki addımlar iqtisadi artım və sosial dinamizm üzərindəki məhdudiyyətləri azaldaraq həm inkişafa, həm də bərabərliyə töhfə verə bilər.
- Risklər: Dövlət səhiyyə proqramları ilə xəstəlik, hidroelektrik stansiyaları tikməklə su daşqınları, güclü makro-iqtisadi və fiskal siyasətlərlə iqtisadi böhran risklərini azalda bilər.

Birləşmiş Millətlər Təşkilatı, Dünya Bankı və Beynəlxalq Valyuta Fondunun da təşviqi ilə bir sıra ölkələr tərəfindən yoxsulluq səviyyəsinin azaldılması ilə bağlı strategiya sənədləri, dövlət proqramları (Poverty Reduction Strategy Papers) qəbul olunmuşdur. Bu sənədlər Minilliyin İnkişaf Məqsədlərinin reallaşdırılması baxımından mühüm vasitə hesab edilir və onlar hazırlanarkən ölkənin spesifik şərtləri, dövlətlə maraqlı tərəflər arasında əməkdaşlıq imkanları nəzərə alınmalı, uzunmüddətli yanaşma çərçivəsində əhatəli olmaqla birlikdə nəticələrə fokuslanılmalıdır. Günümüzdə insan inkişafı konsepti çərçivəsində problemin daha geniş şəkildə ələ alınması və ÇYİ-dən istifadə olunması bu istiqamətə daha səmərəli nəticələrin əldə olunmasına imkan yarada bilər.

3.4 Bərabərsizlik, sosial inteqrasiya və insan inkişafı

Yoxsulluğun səbəblərindən biri iqtisadi resursların məhdud olmasıdır. Lakin mövcud olan resursların qeyri-bərabər bölgüsü yoxsulluğun daha əhəmiyyətli səbəbi kimi qəbul edilir. İlk halda cəmiyyət sadəcə yoxsulluq və ərzaq problemi ilə üzləşdiyi halda, ikinci vəziyyətdə bunlarla birlikdə sosial bərabərsizliklər və narazılıqlar da özünü büruzə verir və yoxsulluğun xroniki problemə çevrilməsinə səbəb olur. Bu baxımdan, yoxsulluq problemi ilə mübarizədə mövcud istehsal səviyyəsinin yüksəldilməsinə paralel olaraq, artan gəlirlərin ədalətli bölgüsü də xüsusi əhəmiyyət daşıyır.

Bərabərsizliklərin dərinləşdirdiyi yoxsulluq gəlir-yoxsulluğu və ya istehlak-yoxsulluğu ilə yanaşı, xidmətləri əldə etmədə məhdudiyyətlər və bacarıqların, fiziki qabiliyyətlərin yetərsizliyi səbəbindən məhrumiyyət şəklində də tərif edilir. Çoxfaktorlu məhrumiyyət (Şəkil 4) daha geniş bir anlayış olaraq təhsil almaq, informasiya əldə etmək kimi sahələri də əhatə edir.

Şəkil 4. Yoxsulluğun çatışmazlıqları və çoxfaktorlu məhrumiyyət



Mənbə: UNDP (2006). Poverty in Focus: What is poverty? Concepts and measures, International Poverty Centre.

Öz daxilində də qarşılıqlı əlaqə içərisində olan bu məhrumiyyətlər (çatışmazlıqlar) bərabərsizliklərin mənbəyini təşkil etdiyinə görə, bərabərsizliyin azaldılması baxımından yoxsulluqdan rifaha doğru inkişaf həmin sahələr üzrə müsbət dəyişiklikləri də ehtiva etməklə hərtərəfli olmalıdır (şəkil 5).

Şəkil 5. Yoxsulluqdan rifaha doğru



Mənbə: UNDP (2006). Poverty in Focus: What is poverty? Concepts and measures, International Poverty Centre.

Bir ictimai qrupun (və ya sosial təbəqənin) digərindən daha güclü və ya iqtisadi resurslara əlçatanlığının daha yüksək olması ilə ümumi insan inkişafını bərqərar etmək qeyri-mümkündür. Ona görə də, ictimai bərabərsizlikləri və

məhrumiyyətləri artıran iqtisadi inkişaf insan inkişafı üzərində də ciddi mənfi təsirlər doğuracaqdır. Empirik təcrübələr yüksək insan inkişafı indeksinə sahib ölkələrdə gəlirlərin bölgüsünün daha ədalətli olduğunu göstərir. Xüsusilə, aşağı və orta gəlirli ölkələrdə sosial bərabərsizliklərin səviyyəsi azaldıqca insan inkişafı indeksində yüksəlmə müşahidə edilir. Digər tərəfdən, gender diskriminasiyanın və sosial bərabərsizliklərin azaldılması səhiyyə və təhsil sahəsindəki müsbət struktur dəyişiklikləri ilə birlikdə iqtisadi inkişafın sürətlənməsinə səbəb olur.

İqtisadi bərabərsizlikləri ölçmək və müqayisə etmək üçün geniş şəkildə istifadə olunan metodlardan biri Cini (Gini) əmsalının hesablanmasıdır. Gəlirlərin təmərküzləşmə əmsalı olaraq da adlandırılan Cini əmsalı, ölkə daxilində mükəmməl bərabər paylanma ilə müqayisədə individual və ya ev təsərrüfatları səviyyəsində gəlirlərin (və ya istehlakın) bölgüsünü ölçür və "0" ilə "1" arasında dəyərlər alır. "0" dəyəri ideal bərabərlik vəziyyətini əks etdirdiyi halda, "1" dəyəri bütün milli gəlirin bir nəfərin (və ya bir qrupun) əlində cəmləşdiyini göstərir. Dolayısilə, gəlirlərin bölgüsündə qeyri-bərabərlik dərəcəsini miqdarca qiymətləndirməyə imkan verən statistik göstəricidir.

İtaliyalı iqtisadçı Korrado Gini tərəfindən inkişaf etdirilən bu əmsal, mütləq (ideal) bərabərliyi ifadə edən düz xətti ilə Lorenz əyrisi arasında qalan sahənin, mütləq bərabərlik düz xətti altında qalan üçbucağın sahəsinə nisbətidir. Onun bərabər bölgüsü zamanı hər bir qrup öz sayına mütənasib olaraq gəlir əldə edir. Bu indeks yalnız əhalinin gəlirlərini yox, müxtəlif qrup işçilərin cinsiyyətinə, məşğulluq xarakterinə və s. görə əmək haqlarının qeyri-bərabər bölgüsü dərəcəsini müəyyən etmək üçün də istifadə edilir.

Qeyd edək ki, əhalinin pul gəlirləri ölçülərkən sadəlik baxımından kvintil və ya desillərdən ibarət qruplar yaradılır. Kvintil (20%) qrupları üzrə göstəricilər alınarkən ev təsərrüfatlarının hər nəfərə sərəncamda qalan gəlirləri artan qaydada düzülərək ev təsərrüfatlarının sayına görə 5 bərabər 20%-lik qrup yaradılır. Bu zaman birinci kvintilə ən az gəlirləri olanlar, beşinci kvintilə isə ən çox gəlirləri olan ev təsərrüfatları düşür. Desil (10%) qrupları eyni qayda ilə məlumatlar düzülərək 10 bərabər hissəyə bölünməklə yaradılır. Təhlil və müqayisə üçün eyni göstəricilər istehlak xərclərinə görə də alına bilər.

Məlumat üçün bildirək ki, son iki əsrə yaxın müddət ərzində müşahidə edilən qlobal iqtisadi inkişafa baxmayaraq, Cini əmsalı davamlı şəkildə pisləşmişdir (cədvəl 4). Belə ki, 1820-ci ildə 0,430 olan əmsal 2002-ci ildə 0,710-a yüksəlmişdir. Bu rəqəm həddindən artıq yüksəkdir və istehsal edilən mal və xidmətlərin artmasına paralel olaraq, sosial bərabərsizliklərin daha kəskin xarakter aldığını göstərir.

Cədvəl 4. Qlobal Cini əmsalı

İllər	Cini əmsalı
1820	0,430
1850	0,532
1870	0,560
1913	0,610
1929	0,616
1950	0,640
1960	0,635
1980	0,657
2002	0,707

Mənbə: Ortiz, I., Cummins, M. (2011). Global Inequality: Beyond the Bottom Billion, UNICEF.

Cədvəl 5-də müxtəlif illər üzrə gəlirlərin qlobal miqyasda bölgüsünün əhalinin kvintilləri (Q) arasındakı paylanması göstərilmişdir. Məsələn, alıcılıq qabiliyyəti paritetinə əsasən (2005-ci ilin qiymətləri ilə), 2007-ci il etibarilə dünya əhalisinin ən zəngin 20%-lik təbəqəsi qlobal gəlirlərin təxminən 70%-nə sahib olmuşdur. Əhalinin ən yoxsul 20%-lik təbəqəsi isə, qlobal gəlirlərin sadəcə 2%-i ilə kifayətlənmişdir (cədvəl 5).

Cədvəl 5. Əhalinin kvintilləri üzrə gəlirlərin qlobal bölgüsü

	Gəlirlərin qlobal bölgüsü (%)		
	1990-cı il	2000-ci il	2007-ci il
Q5	75,3	74,4	69,5
Q4	14,9	14,2	16,5
Q3	5,4	6,3	7,8
Q2	3,0	3,4	4,2
Q1	1,5	1,7	2,0
Ölkə sayı	99	127	136
Dünya əhalisinin faizi	86,1	91,1	92,4
Qlobal ÜDM-in faizi	85,3	87,4	88,6

Mənbə: Ortiz, I., Cummins, M. (2011). Global Inequality: Beyond the Bottom Billion, UNICEF.

Araşdırmalara görə, qarşıdakı onilliklər ərzində bərabərsizliklərin ciddi şəkildə azalacağı gözlənilmir. Məsələn, Hillebrand (2008) qlobal Cini əmsalının 2050-ci ildə ən yaxşı halda 0,610, ən pis halda isə 0,708 olacağını proqnozlaşdırır.

Sosial bərabərsizliklərlə mübarizə metodları iki qrup altında ümumiləşdirilir (cədvəl 6):

- hədəflənən nəticələrin əldə edilməsinə fokuslanan təbirlər: sosial bərabərsizliklərlə mübarizədə müsbət addımların təşviq edilməsi və dövlət tərəfindən effektiv şəkildə dəstəklənməsi;
- sosial bərabərsizliyi törədən və ya dərinləşdirən səbəblərin aradan qaldırılmasına fokuslanan təbirlər: tətbiq edilməkdə olan mövcud siyasətlərin tərk edilməsi və ya dəyişdirilməsi.

Cədvəl 6. Sosial bərabərsizliklərlə mübarizə metodları

Sahələr	Uşaqlar və ev təsərrüfatları üçün ədalətli nəticələrə fokuslanmış tədbirlər	Ədalətsiz / reqressiv nəticələrə fokuslanmış tədbirlər	İstinad üçün faydalı mənbələr
Təhsil	• universal ödənişsiz təhsil • tələbələr üçün təqaüdlər və proqramlar	• istifadəçi ödənişləri • təhsilin ticariləşdirilməsi • müəllimlərin əmək haqlarından xərc-qənaətləri	• UNICEF • UNESCO • UNRISD • World Bank's PRSP Sourcebook
Enerji və mədənçilik	• kənd yerlərinin elektrik enerjisi ilə təminatı • aşağı-gəlirli ev təsərrüfatları üçün istehlak subsidiyaları • güzəştli sosial fondlar • təbii sərvətlərdən lokal faydalar təmin edən qanunvericilik	• neft / mineral hasilat üçün vergi tətbiq olunmaması	• UN Policy Notes • World Bank's PRSP Sourcebook • DFID
Maliyyə	• kənd yerlərində regional banklar • lokal sahələrdə filiallaşma / şöbələşmə • maliyyə menecmenti (maliyyə və əmtəə bazarlarının tənzimlənməsi, kapital nəzarətləri)	• maliyyə sərbəstliyi • bank sisteminin xilas edilməsi (böyük banklara transfertlər) • böyük özəl müəssisələrə subsidiyalar	• UN Policy Notes • UNCTAD • CGAP
Səhiyyə	• universal ibtidai və orta səhiyyə xidmətləri • qidalanma proqramları • ödənişsiz reproduktiv səhiyyə xidmətləri	• istifadəçi ödənişləri • səhiyyənin ticariləşdirilməsi • az faydalı ali ixtisaslaşmış klinikalar (məsələn, kardioloji mərkəzlər)	• UNICEF • WHO • UNRISD • UNFPA • UN Policy Notes
Mənzil	• aşağı-gəlirli təbəqələr üçün mənzil subsidiyaları • aşağı standartlı mənzillərin təkmilləşdirilməsi	• yüksək-gəlirli təbəqələrin mənzil sahibi olmaları üçün dövlət tərəfindən maliyyələşmə	• UN Habitat • IDS
Sənaye	• rəqabətə davamlılığı dəstəkləyən texnologiya siyasəti • yerli məşğulluq yaradan sənayelər • kiçik və orta sahibkarlıq müəssisələri	• tənzimləməmə • ticarətin ümumi liberallaşdırılması	• UNCTAD • UN Policy Notes • ILO
Əmək resursları	• aktiv və passiv əmək proqramları • məşğulluq yaratma siyasətləri	• əmək resurslarının elastikləşdirilməsi	• ILO • UN Policy Notes
Makroiqtisadi siyasətlər	• məşğulluq yönümlü monetar və fiskal siyasətlər • balanslaşdırıcı siyasətlər • birbaşa vergiləndirmə	• inflyasiyanın nəzarət altında saxlanılmasına ifrat fokuslanma • tsiklik siyasətlər • dolayı vergiləndirmə (ƏDV)	• UN Policy Notes • ILO • UNDP • UNCTAD
Dövlət xərcləri	• yoxsulluq yönlü xərclər • fiskal özünüidarəetmə	• hərbi-müdafiə xərcləri • yüksək gəlirli qrupların faydalandığı fəaliyyətlərə verilən subsidiyalar	• World Bank's PRSP Sourcebook • UNICEF • IDS

Kənd yerlərinin inkişafı	• torpaqların yenidən bölgüsü • su təchizatı və bazarlara çıxış • heyvandarlıq, kiçik fermerlər üçün kreditlər, aqrar məsləhət xidmətləri	• böyük torpaq sahiblərinin faydalana biləcəyi böyük investisiyalar (məsələn, irriqasiya sistemləri)	• FAO • WFP • World Bank's PRSP Sourcebook
Sosial müdafiə	• sosial müdafiə təbəqəsi • pul köçürmələri və sosial xidmətlər	• özəl fondlu pensiya sistemləri	• ILO • WHO • UNICEF • UN • UNRISD • Development banks
Turizm	• kiçik miqyaslı yerli şirkətlər • əsas infrastrukturun maliyyələşməsi • beynəlxalq marketinq kompaniyaları	• lüks otel şəbəkələrinə aşağı dərəcəli vergi tətbiqi	• DFID • Overseas Development Institute
Ticarət	• məşğulluq yaradan yerli şirkətlərlə ixrac bazarları arasında əlaqənin yaradılması • daxili inkişaf üçün ixrac sektorlarının vergiləndirilməsi	• əsasən ikitərəfli sərbəst ticarət müqavilələri • mövcud intellektual mülkiyyət müqavilələri	• UNCTAD • UN Policy Notes
Nəqliyyat və infrastruktur	• yerli əhəmiyyətli yollar • sosial infrastruktur • münasib qiymətli ictimai nəqliyyat • ev təsərrüfatları üçün motorsuz nəqliyyat (velosipedlər, camışlar, atlar)	• yoxsulların / sosial baxımdan təcrid olunanların istifadə etmədiyi və ya vergiləndirmə baxımından yararsız olan böyük (və məsrəfli) infrastruktur investisiyaları	• World Bank's PRSP Sourcebook • DFID
Şəhər inkişafı	• yoxsul səmtlərin təkmilləşdirilməsi • əlçatan universal dizayn	• inkişaf etmiş yerlərdə böyük şəhər infrastruktur layihələri	• World Bank's PRSP Sourcebook • UN Habitat • UNICEF
Su və kanalizasiya	• kənd yerlərində su təchizatı və kanalizasiya	• qeyri-təkmil özəlləşdirmə	• UNICEF • UNDP • World Bank's PRSP Sourcebook

Mənbə: Ortiz, I., Cummins, M. (2011). Global Inequality: Beyond the Bottom Billion, UNICEF.

İctimai bərabərsizliklər və yoxsulluq əhalinin təbəqələri arasında ən çox qadınların və uşaqların inkişafına mənfi təsirini göstərir. Bundan dolayı bərabərsizliklə mübarizə siyasətlərində ilkin olaraq əhalinin bu təbəqələrinə fokuslanılması zəruridir.

Ümumilikdə isə Cədvəl 6-dan göründüyü kimi ölkənin spesifik şərtləri nəzərə alınmaqla bərabərsizliyi törədən amillər düzgün təhlil edilməli, yalnız bundan sonra hansı təbirlərin həyata keçirilməsinə və ya keçirilməməsinə qərar verilməlidir.

Sonda qeyd edək ki, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının İnsan İnkişafı Hesabatları bu istiqamətdə yaxşı bələdçi rolunda çıxış edə bilər. Hesabatlarda, gəlirlərin Cini əmsalı, ömür bərabərsizliyi, təhsil bərabərsizliyi, gəlir bərabərsizliyi kimi göstəricilər və bu göstəricilər əsasında hazırlanmış müvafiq indekslər öz əksini tapır.

3.5 Azərbaycan: İqtisadi uğur hekayəsi

2000-ci ildə Minilliyin Bəyannaməsinin imzalanması ilə birlikdə Azərbaycan Respublikasında da Minilliyin İnkişaf Məqsədlərinə nail olmaq istiqamətində müvafiq siyasət tədbirləri həyata keçirilmişdir. Bu istiqamətdə əsas mühüm addım "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nın icra edilməsi olmuşdur. Dövlət Proqramı hazırlanarkən Dünya Bankının Dünyanın İnkişafı Haqqında məruzəsində (2000/2001) öz əksini tapan yoxsulluğun azaldılması strategiyasının üç əsas istiqaməti nəzərə alınmışdır:

- iqtisadi imkanların yaradılması;
- hüquq və imkanların genişləndirilməsi;
- maddi təhlükəsizliyin artırılması.

Adıçəkilən proqram bir sıra ölkələr kimi Minilliyin İnkişaf Məqsədlərinə uyğun olaraq 2015-ci ilə qədərki dövrü əhatə etmədiyindən və 2006-cı ildə Bakı-Tbilis-Ceyhan neft boru kəmərinin işə düşməsi ilə birlikdə Azərbaycanın təbii resurslardan əldə etdiyi gəlirlərin artmasına bağlı olaraq daha böyük hədəflər əsasında (2008-2015-ci illərdə ÜDM-in həcminin, o cümlədən qeyri-neft sektoru üzrə ÜDM-in real həcminin 2 dəfə artırılması, yoxsulluğun səviyyəsinin 2 dəfə azaldılması və s.) "2006-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" təsdiq olunmuşdur. Həmçinin, 2011-ci ildə son qeyd edilən Dövlət Proqramının həyata keçirilməsi üzrə 2011-2015-ci illəri əhatə edəcək Tədbirlər Planı qəbul edilmişdir.

Son qeyd edilən Dövlət Proqramında 2008-2015-ci illər üzrə aşağıdakı əsas doqquz strateji məqsəd müəyyənləşdirilmişdir:

- makroiqtisadi sabitliyi saxlamaqla və qeyri-neft sektorunu tarazlı inkişaf etdirməklə davamlı iqtisadi artımın təmin edilməsi;
- əhalinin gəlir əldə etmək imkanlarının genişləndirilməsi, yoxsulluq səviyyəsinin əhəmiyyətli dərəcədə azalmasına nail olunması;
- səmərəli sosial müdafiə sistemini inkişaf etdirməklə yaşlı əhalinin, aztəminatlı ailələrin və sosial cəhətdən xüsusilə həssas qrupların sosial riskinin azaldılması;
- qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması tədbirlərinin sistemli şəkildə davam etdirilməsi;
- təhsil və səhiyyə sahəsində əsas xidmətlərin keyfiyyətinin yüksəldilməsi və onları əldə etmək üçün bərabər imkanların yaradılması;
- sosial infrastrukturun inkişaf etdirilməsi, kommunal xidmətlər sisteminin təkmilləşdirilməsi;
- ekoloji vəziyyətin yaxşılaşdırılması, ətraf mühitin davamlı idarə olunmasının təmin edilməsi;

- gender bərabərliyinin dəstəklənməsi;
- institusional islahatların davam etdirilməsi və dövlət idarəetməsinin təkmilləşdirilməsi.

Bu proqramın spesifik xüsusiyyətləri aşağıdakı kimi ümumiləşdirilə bilər:

- Minilliyin İnkişaf Məqsədlərinə tam uyğunlaşdırılmışdır və ölkə üzrə müvafiq siyasətin məqsədlərini və konkret hədəfləri müəyyənləşdirir;
- həmin məqsədlər eyni zamanda tam metodoloji varislik prinsipi gözlənilməklə, əvvəlki Dövlət Proqramının davamını ehtiva edir;
- həyata keçirilən digər cari dövlət proqramları ilə uzlaşdırılmışdır;
- hökumət, beynəlxalq təşkilatlar və vətəndaş cəmiyyətinin cəlb olunduğu iştirak və monitorinq prosesinə əsaslanır.

Strateji məqsədlərə nail olmaq məqsədilə həyata keçiriləcək tədbirlər isə proqramda dörd funksional istiqamətdə qruplaşdırılmışdır:

- makroiqtisadi sabitlik və iqtisadi artım;
- məşğulluq siyasəti və əhalinin sosial müdafiəsi;
- insan kapitalının inkişafı və sosial tərəqqi;
- institusional siyasət və səmərəli idarəetmə.

Bu və digər dövlət proqramlarının həyata keçirilməsi nəticəsində Azərbaycanda ÜDM-in həcmi 2005-ci ildə təqribən 1987-ci il səviyyəsinə çatmış, 2010-cu ildə isə 1987-ci ildəki səviyyənin iki qatına çıxmışdır. Həmçinin, dünya maliyyə böhranı zamanı və ondan sonrakı dövrdə qeyri-neft sektorunda əhəmiyyətli səviyyədə iqtisadi artım tempi müşahidə olunmuşdur (2009-cu ildə 3,2%, 2010-cu ildə 7,9% və 2011-ci ildə 9,4%).

Belə yüksək iqtisadi artım tempi iqtisadiyyatın sektorları üzrə ümumi faktor məhsuldarlığında ciddi dəyişmə olmadan, əsasən təbii ehtiyatlar sektoruna yönələn yüksək həcmli investisiyalar hesabına baş vermişdir. Kapital investisiyaları neft və qaz hasilatının və ixracının yüksəlməsinə səbəb olmuş, nəticədə fiskal gəlirlərdə və büdcə xərclərində sürətli artım müşahidə edilmiş, bu da öz növbəsində yoxsulluğun azaldılmasına və infrastrukturun inkişaf etdirilməsinə zəmin yaratmışdır.

Neft hasilatının 2025-ci ilədək azalacağı proqnozlaşdırıldığından qarşıda duran əsas vəzifə ölkə iqtisadiyyatının diversifikasiyasına nail olmaqdır. Qısa və ortamüddətli dövrdə qeyri-neft ticari sektorlara yönəldilən investisiyaların həcminin sürətlə artırılması, orta və uzunmüddətli dövrdə isə hazırkı investisiyaya əsaslanan ölkə iqtisadiyyatının ümumi faktor məhsuldarlığındakı artım sayəsində tədricən məhsuldarlığa əsaslanan iqtisadiyyata transformasiyası tələb olunur.

Müxtəlif hesablamalara görə, 2025-ci ilə qədər Azərbaycanda hər nəfərə düşən ÜDM-in həcmi indiki səviyyəsinin iki qatına yüksələ bilər. Bu isə, hazırda Dünya Bankının hər nəfərə düşən Ümumi Milli Gəlir təsnifatına görə yuxarı orta

gəlirli ölkələr kateqoriyasında yer alan Azərbaycanın 2025-ci ildə yuxarı gəlirli ölkələr qrupuna yaxınlaşması deməkdir.

Hər nəfərə düşən ÜDM-in həcmi yüksəldikcə gəlirlərin ədalətli bölgüsünün də əhəmiyyəti artır. Bu günə qədər Azərbaycanda yoxsulluqla mübarizədə əsas parametr kimi "mütləq" və "nisbi" yoxsulluq hədlərinə istinad edilmiş və müvafiq göstərici üzrə xeyli irəliləyiş əldə olunmuşdur. Növbəti mərhələdə yoxsulluğa qarşı mübarizədə gəlirlərin artırılması və bərabərsizliklərin azaldılması ilə birlikdə Çoxfaktorlu Yoxsulluq İndeksinin yaxşılaşdırılmasına diqqət edilməsi daha əhəmiyyətli hala gələcəkdir.

2011-ci ilin İnsan İnkişafı Hesabatına görə, Azərbaycanda 2011-ci ildə Çoxfaktorlu Yoxsulluq İndeksi 0,021 olmaqla birlikdə, mütləq yoxsulluq səviyyəsi 2008-ci ildə 1% təşkil etmişdir. Gəlirlərin Cini əmsalı da 1995-ci illə müqayisədə 2008-ci ildə 0,350-dən 0,337-yə qədər aşağı düşmüşdür.

Qeyd edək ki, insan inkişafı ilə bağlı son hesabatlarda, Azərbaycan insan potensialının inkişafı göstəricisinə görə "orta insan inkişafı" ölkələri qrupunu tərk edərək, "yüksək insan inkişafı" ölkələri kateqoriyasına daxil olmuşdur. Ümumiyyətlə, son illərdə ölkədə hər nəfərə düşən ÜDM-in həcminin artması və insan inkişafının yüksəlməsi yoxsulluq səviyyəsinin azalması ilə müşayiət olunmuşdur. Belə ki, Azərbaycanda yoxsulluğun səviyyəsi 2003-cü ildəki 44,7%-lə müqayisədə 2011-ci ilin sonuna 7,6%-ə enmişdir (qrafik 2).

Qrafik 2. Azərbaycanda yoxsulluq səviyyəsi ilə hər nəfərə düşən ÜDM-in həcminin dəyişməsi



Qeyd: Qrafik 2003-2011-ci illərə dair rəsmi statistik məlumatlar əsasında hazırlanmışdır.

Ümumilikdə, sosial müdafiə sisteminin təkmilləşdirilməsi, elm, təhsil və səhiyyə sisteminin inkişaf etdirilməsi, aktiv məşğulluq siyasətinə əsaslanan

əmək bazarının formalaşdırılması, təhsil sektorunun əmək bazarının tələblərinə qarşı həssaslığının artırılması, yoxsulluğa qarşı mübarizənin davam etdirilməsi, mədəni irsin qorunması, ictimai konsensusun gücləndirilməsi, çevik gənclər və idman siyasətinin həyata keçirilməsi, demoqrafiya və miqrasiya məsələlərinin effektiv tənzimlənməsi kimi tədbirlər yüksək sosial rifahın təmini və insan kapitalının inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir.

3.6 Nəticə

İnkişafın əsas məqsədi insanlara uzun, sağlam və yaradıcı həyatlarından zövq almaları üçün əlverişli mühitin yaradılmasından ibarətdir. İnsan inkişafı bu baxımdan insanların seçim imkanlarının artırılması prosesidir.

Aydındır ki, insan inkişafı ilə iqtisadi artım arasında qarşılıqlı əlaqənin mövcud olmasına baxmayaraq, bu rabitə öz-özünə yaranmır və iqtisadiyyatın strukturu, gəlirlərin bölgüsü, həyata keçirilən siyasət tədbirləri kimi bir sıra amillərdən asılıdır. Həmçinin, insan inkişafının yüksək səviyyəsi insanların imkanlarının genişlənməsi, nəticədə onların yaradıcılığı və məhsuldarlığı sayəsində iqtisadiyyata təsir göstərir. İnsanların daha yaxşı qidalanması, təhsili və sağlamlığı yüksək əmək məhsuldarlığı, təkmilləşdirilmiş texnologiya və yüksək ixrac vasitəsilə iqtisadi artıma öz töhfəsini verir.

Ənənəvi iqtisadi artım modellərindən fərqli olaraq, yeni iqtisadi artım nəzəriyyələrində təhsil, öyrənmə, tədqiqat və inkişaf etdirmə fəaliyyətlərinin təsiri nəzərə alınaraq texnoloji tərəqqi endogen amil kimi qəbul edilir və insan kapitalı modelin mərkəzində yer alır. İqtisadi artım insan inkişafının davamlı yaxşılaşması üçün zəruri resursları təmin edir. Digər tərəfdən, əmək resurslarının keyfiyyətinin yaxşılaşması iqtisadi artım baxımından mühüm əhəmiyyət kəsb edir.

Qısamüddətli dövrdə iqtisadi artım mövcud resurslardan daha effektiv istifadə olunmaqla təmin edilə bilər. Uzunmüddətli dövrdə isə iqtisadi artıma mövcud istehsal amillərinin kəmiyyət artımının təmin edilməsi, keyfiyyətinin yüksəldilməsi və ya hər iki vəziyyətin eyni zamanda reallaşması ilə nail oluna bilər. Bununla yanaşı, qısamüddətli iqtisadi artım iqtisadiyyatda cari dövrdə əvvəlki dövrlə müqayisədə əmtəə və xidmətlərin istehsalındakı artımı, uzunmüddətli iqtisadi artım isə ÜDM-dəki dəyişmələrin fundamental meyillərini ifadə edir. Bir sıra ölkələrdə hər nəfərə düşən ÜDM-in həcminin yüksək olmasına baxmayaraq, yaşayış keyfiyyətinin aşağı olması iqtisadi artımın iqtisadi inkişafla dəstəklənmədiyini ortaya qoyur.

Rifah anlayışı, fərdlərin layiqli gəlir səviyyəsinə sahib olduğu, fizioloji tələbatları ilə yanaşı sosial və mədəni ehtiyaclarının da ödəndiyi inkişaf etmiş cəmiyyəti, buna müvafiq olaraq, rifah dövləti də ictimai mənafeyi ön planda

tutan, bazar iqtisadiyyatına əsaslanan bir anlayışı təmsil edir.

Həyat standartları insanların gəlir səviyyəsi, yığımları, istehlak xərcləri içərisində qeyri-ərzaq mallarının xüsusi çəkisi, səhiyyə xidmətlərindən istifadə səviyyəsi və s. kimi olduqca müxtəlif amillərlə birbaşa əlaqəlidir. Bu baxımdan həyat standartları ölçülərkən ayrı-ayrı məqsədlər ön plana çıxır. Məqsədlərin müxtəlifliyi araşdırılan indikatorların və istifadə edilən alətlərin də sayının artmasına səbəb olmuşdur.

Bəşər tarixinin hər mərhələsində mövcud olan yoxsulluq, sadəcə iqtisadi deyil, sosial və əxlaqi xüsusiyyətləri ilə birlikdə kompleks problemdir. Əhalinin həyat səviyyəsinin qiymətləndirilməsi ilə bağlı müxtəlif yanaşmaların olması səbəbindən yoxsulluq anlayışının tərifi də yoxsulluq səviyyəsinin hansı metodoloji yanaşma ilə ölçülməsinə görə dəyişir. Yoxsulluq səviyyəsinin ölçülməsində ən yeni yanaşma olan Çoxfaktorlu Yoxsulluq İndeksi fərdlərlə bağlı səhiyyə, təhsil və yaşayış standartı üzrə bir sıra çatışmazlıqları nəzərə alır.

Yoxsulluq səviyyəsinin azaldılması istiqamətində həyata keçirilən siyasətlərin effektivliyi yoxsulluğun səbəblərinin düzgün diaqnozundan birbaşa asılıdır. Yoxsulluğun səbəblərindən biri iqtisadi resursların məhdud olmasıdır. Lakin mövcud olan resursların qeyri-bərabər bölgüsü yoxsulluğun daha əhəmiyyətli səbəbi kimi qəbul edilir. Bu baxımdan, yoxsulluq problemi ilə mübarizədə mövcud istehsal səviyyəsinin yüksəldilməsinə paralel olaraq, artan gəlirlərin ədalətli bölgüsü də xüsusi əhəmiyyət daşıyır. Ümumilikdə isə, ölkənin spesifik şərtləri nəzərə alınmaqla bərabərsizliyi törədən amillər düzgün təhlil edilməli, yalnız bundan sonra hansı təbirlərin həyata keçirilməsinə və ya keçirilməməsinə qərar verilməlidir.

Azərbaycanda Minilliyin İnkişaf Məqsədlərinə nail olmaq istiqamətində müvafiq siyasət tədbirləri həyata keçirilmiş və mühüm nəticələr əldə olunmuşdur. İllər üzrə müşahidə edilən yüksək iqtisadi artım fonunda yoxsulluq səviyyəsinin kəskin şəkildə ixtisarı mümkün olmuşdur. Bu nailiyyətlər əlaqədar beynəlxalq hesabatlarda da öz əksini tapmışdır. Qarşıda duran əsas vəzifə ölkə iqtisadiyyatının diversifikasiyasına nail olmaq, hazırkı investisiyaya əsaslanan ölkə iqtisadiyyatının ümumi faktor məhsuldarlığındakı artım sayəsində tədricən məhsuldarlığa əsaslanan iqtisadiyyata transformasiya etməkdən ibarətdir. İnsan İnkişafı İndeksi ilə yanaşı, yoxsulluğa qarşı mübarizədə gəlirlərin artırılması və bərabərsizliklərin azaldılması ilə birlikdə Çoxfaktorlu Yoxsulluq İndeksinin yaxşılaşdırılmasına diqqət edilməsi daha əhəmiyyətli hala gələcəkdir.

Suallar

1. İqtisadi artım nədir və onunla iqtisadi inkişaf arasındakı fərqi necə izah edərdiniz?
2. Ümumi Daxili Məhsulun ölçülməsi ilə bağlı hansı üsullar mövcuddur?
3. Nominal ÜDM-in artım tempi 7% və deflyatorun dəyişməsi 4% təşkil edibsə, həmin il real ÜDM-in artım sürəti nə qədər olmuşdur?
4. ÜDM-in həcminin 50 milyard ABŞ dolları təşkil etdiyi bir ölkədə növbəti illər üçün illik iqtisadi artım tempi 5% səviyyəsində proqnozlaşdırılırsa, 7 il sonra ÜDM-in həcminin nə qədər olacağı gözlənilir?
5. Ölkədə növbəti illər üçün illik iqtisadi artım tempi 7% səviyyəsində proqnozlaşdırılırsa, neçə il sonra ÜDM-in həcmi mövcud səviyyəsinin iki qatına çata bilər?
6. Hər nəfərə düşən real ÜDM-in həcmi 3%, əhalinin sayı 1,2% artıbsa, real ÜDM-in artım faizi təqribən nə qədər olmuşdur?
7. İqtisadi artımın əsas amilləri nələrdir?
8. Qısa və uzun müddətli iqtisadi artımı necə səciyyələndirmək olar?
9. Ənənəvi və müasir iqtisadi artım modelləri hansılardır?
10. Endogen iqtisadi artım modeli digər iqtisadi artım modellərindən hansı xüsusiyyətlərinə görə fərqlənir?
11. Sizcə davamlı inkişafın təmin edilməsi məqsədilə iqtisadi artıma, yoxsa insan inkişafına fokuslanılmalıdır?
12. İqtisadi artımın insan inkişafı üzərindəki təsirləri hansı kanallarla formalaşır?
13. İnsan inkişafının iqtisadi artım üzərindəki təsirləri hansı kanallarla formalaşır?
14. Rifah və rifah dövləti anlayışlarını qısaca izah edin.
15. Sosial rifah dövlətinin əsas məqsədləri nələrdir?
16. Rifah səviyyəsinin yüksəldilməsi üçün dövlətin əlində hansı alətlər mövcuddur?
17. Keynes və Wagner nəzəriyyələri çərçivəsində iqtisadi artımla dövlət xərcləri arasındakı əlaqəni şərh edin.
18. Həyat standartlarının ölçülməsi ilə bağlı hansı məqsədlər və araşdırma alətləri mövcuddur?
19. Həyat standartları və yaşayış keyfiyyəti ölçülərkən hansı parametrlərə baxılır?
20. Yoxsulluqla bağlı hansı yanaşmalar mövcuddur? Hər bir yanaşmanı qısaca izah edin.
21. Yoxsulluq nisbəti, yoxsulluğun intensivliyi və Çoxfaktorlu Yoxsulluq İndeksi necə hesablanır?

22. Makroiqtisadi mühitin yoxsulluq səviyyəsinə təsirlərini necə xarakterizə etmək olar?
23. Yoxsulluq səviyyəsinin azaldılması istiqamətində həyata keçirilən əsas siyasət tədbirləri hansılardır?
24. Çoxfaktorlu məhrumiyyət anlayışını necə izah edərdiniz?
25. Cini əmsalı nədir və onun gəlirlərin ədalətli bölgüsü baxımdan əhəmiyyətinə dair nə deyə bilərsiniz?
26. Sosial bərabərsizliklərlə mübarizə metodları hansılardır?
27. Azərbaycanda yoxsulluğun azaldılması və davamlı inkişaf üzrə dövlət proqramlarının strateji məqsədləri ilə Minilliyin İnkişaf Məqsədlərini müqayisə edin.
28. Azərbaycanda yoxsulluq səviyyəsi ilə hər nəfərə düşən ÜDM-in həcmi arasındakı əlaqəni qısaca izah edin.
29. Qrafik 1 ilə qrafik 2-ni müqayisəli şəkildə şərh edin.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT VƏ MƏNBƏLƏR

- 1. Alkire, S. (2010). The Multidimensional Poverty Index & The Millennium Development Goals: Showing Interconnections, Oxford Poverty & Human Development Initiative.
2. HDR (2010). Human Development Report, 20th Anniversary Edition, UNDP.
3. HDR (2011). Human Development Report, UNDP.
4. Hillebrand, E. (2008). The Global Distribution of Income in 2050. World Development, 36 (5): 727-740.
5. IMF (2002). Executive Board Reviews the Poverty Reduction Strategy Paper (PRSP) Approach, March 15, 2002, Public Information Notice (PIN) No. 02/31, International Monetary Fund.
6. Kibritçioğlu, A. (1998). Determinants of Economic Growth and the Role of Human Capital in New Growth Models, AÜSBF Dergisi, 53 (1-4): 207-230.
7. Mankiw, N. G. (2010). Macroeconomics, 7th ed., New York, Worth Publishers.
8. Ortiz, I., Cummins, M. (2011). Global Inequality: Beyond the Bottom Billion, UNICEF.
9. Oxford Poverty & Human Development Initiative, Oxford Department of International Development, University of Oxford.
10. Ranis, G., Stewart, F. & Ramirez, A. (2000). Economic Growth and Human Development. World Development, 28 (2): 197-219.

11. Scott, K., Steele, D. & Temesgen, T. (2005). Living Standards Measurement Study Surveys, Chapter 23, Household Sample Surveys in Developing and Transition Countries, United Nations.
12. Taban, S. (2008). İktisadi Büyüme: Kavram ve Modeller, Ankara, Nobel Yayın Dağıtım.
13. UNDP (2006). Poverty in Focus: What is poverty? Concepts and measures, International Poverty Centre.
14. World Development Report 2000/2001, World Bank.